**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm
Tədrisin təşkili və təlim
texnologiyaları üzrə prorektor v.i.e:
_______ dos. Zaur Məmmədov
"14" 02 2025-ci il

**Fənn sillabusu**

**İxtisas:** 050810 -"Turizm işinin təşkili" A, B
**Fakültə:** "İqtisadiyyat və idarəetmə"
**Kafedra:** "İqtisadiyyat və innovativ idarəetmə"

**I. Fənn haqqında məlumat**

**Fənnin adı:** "Kəmiyyət əsaslı tədqiqat metodları" İşçi tədris planı kafedranın 11. 02. 2025-ci il 06 saylı protokolu ilə təsdiq edilmişdir.
**Fənnin kodu:** İPF-B 12
**Tədris ili:** II (2024-2025). Semestr: VI
**Fənnin tədris semestri:** Y - 2
**Tədris yükü cəmi:** Ümumi 120 saat Auditoriya yükü 45saat- (30 s. mühazirə, 15 s.məşgələ)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan
**AKTS üzrə kredit:** 4

**II.Müəllim haqqında məlumat:**

**Fənni tədris edən müəllimin adı, soyadı, elmi dərəcəsi və elmi adı:** *i.ü.f.d.,dos.Zamanov Fizuli Mirzəmməd oğlu*
**Adı, soyadı, elmi dərəcəsi:** *Zamanov Fizuli Mirzəmməd oğlu i.ü.f.d.,dos.*
**Kafedranın hüquqi ünvanı:** Lənkəran şəhəri, Füzuli küç., 170-a
**Məsləhət saatı:** II-V günlər: saat $12^{00}$-$13^{00}$
**E-mail ünvanı:** fizuliz@list.ru

**III. Tövsiyyə olunan dərslik, dərs vəsaiti və metodiki materiallar:**

**Əsas**


1."Azərbaycan 2020: Gələcəyə baxış." İnkişaf konsepsiyası. Bakı-2012, 39 səh
2."Azərbaycan Respublikasının 2016-2020-ci illərdə turizmin inkişafına dair Dövlət Proqramı. 2016.
3. Əli Cabbarov. "Turizmin iqtisadi əsasları". Bakı-2015, 267 səh.
4.Əli Əlirzayev. "Turizmin iqtisadiyyatı və idarə edilməsi". Bakı-2011, 493 səh.
5.Ə.Q.Əlirzayev, E.Ə.Əlirzayev."Azərbaycanın sosial-iqtisadi problemləri, konseptual yanaşma, maliyyə-büdcə və sahələrarası proqnozlaşdırma mexanizmləri". Bakı-2012, 583 səh.
6.Turizmin əsasları: dərslik / müəllif kollektivi; dosent B.Ə.Bilalov və dos.Ç.G.Gülalıyevin redaktəsi ilə. Bakı, "QHT Nəşriyyatı", 2015. 496 s.
8.Turizmin davamlı inkişafı yerli planlaşdırma üzrə vəsait. Bakı, 2012. 59 səh.
9. Turizmin Qlobal etik məcəlləsi. Ümumdünya Turizm Təşkilatı.1999, 6 səh


**Əlavə**


10.Sabir Rəhimov. Turizm-ekskursiya işinin təşkili. Bakı-2004, 310 səh.
11.V.İ.Yaroçkin, Y.V.Buzanova. "Biznesin və sahibkarlığın təhlükəsizliyinin əsasları". Bakı- 2008, 174 səh.
12."Yaşıl inkişaf: enerji səmərəliliyi və alternativ mənbələr". Müəlliflər qrupu. Bakı-2014, 143 səh.
13.Yaroçkin V.İ., Buzanova Y.V. Biznesin və sahibkarlığın əsasları. Rus dilindən tərcümə. Bakı-«İqtisad Universiteti»- 2008, 174 səh. (Təhlükəsizlik texnologiyaları).
14.Kadir IOztaш, Turizm Ekonomisi: Genel Turizm Bilgileri, Nobel Nəşriyyatı, Ankara, 2002.
15.Laurence Geller, "The Demands of Globalızatıon on the Lodgıng ЬIndustry", Flu Hospıtalıty Revıew, Vol. 16, No: 1, 1998.
16.Mithat Zeki Dinçer, Turizm Ekonomisi Ders Notları, İstanbul Universitesi İktisat Fakultesi, 2001.

**IVPrerekvizitlər:** Fənnin tədrisi üçün ilkin olaraq "Keyfiyyət əsaslı tədqiqat metodları", "Destinasiyanın idarə edilməsi" kimi fənlərin tədrisi zəruridir.

**V.Korerekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxtda "Turizm siyasəti və planlaşdırılması", "Turizmdə vasitəçilər " fənlərinin tədrisinə ehtiyac vardır.

**VI.Fənnin təsviri:** Turizm təbiət və quruluşuna görə mürəkkəb, sosial-siyasi, iqtisadi və texniki aspektlərə, onların kəmiyyət və keyfiyyət xüsusiyyətlərinə malik olan çoxlu hadisələri əhatə edir. Turizmdə əlaqəli elmlərin metodlarından müəyyən dərəcədə istifadə olunur. Məsələn, menecerlər və marketoloqlar strateji biznesin idarə edilməsi, lisenziyalaşdırma, standartlaşdırma, sertifikatlaşdırma, maliyyə və kredit, mühasibat uçotu statistika kimi turizmlə qarşılıqlı əlaqədə olan elmlərin kəmiyyət və keyfiyyət tərəflərini metodiki baxımdan öyrənir və mənimsəyir. Bu və digər bilik sahələri üzrə səriştəlilik peşə hazırlığının daim təkmilləşdirilməsini, dünyagörüşünün genişlənməsini, ümumi elmi erudisiyanın inkişafını tələb edir.

Müasir turizmin kəmiyyət və keyfiyyət baxımdan öyrənilməsi informatika, telekommunikasiya, psixika, riyaziyyat, kompüter texnologiyalarının nailiyyətlərindən və onlarda istifadə olunan metodlardan məharətlə istifadə edilmədən mümkün deyil. Turizmin müəyyən növləri haqqında elmi biliklərin əldə edilməsi obyektiv reallıqdır. Məsələn, reallıqda insanın şüurundan kənarda onun beynində müəyyən psixi obrazlar şəklində əks olunan ictimai hadisələr, konkret situasiyalar var. Obrazın özündə əks olunan hadisənin reallığa uyğunluğu onun məzmununun obyektivlik dərəcəsini xarakterizə edir.

Tələbələrə kəmiyyət əsaslı tədqiqat metodlarının tədrisi, onun mahiyyəti və əhəmiyyətini eləcə də, turizmin kəmiyyət araşdırmalarında dialektikanın əsas qanunlarının tətbiqi, turizm şirkətlərinin malyyə-təsərrüfat fəaliyyətinin kəmiyyət dəyişikliklərinə təsiri, turizmdə kəmiyyət tədqiqatlarının elmi proqnozlaşdırma üsulları haqqında biliklər verməkdən ibarətdir.

Turizm fəaliyyətində subyektivlik insanın mövcud və gələcək reallığı əks etdirən obrazlar yaratması ilə xarakterizə olunur: mehmanxanada yerləşmə və keyfiyyətli xidmət və xidmət növlərinin kəmittəti, bölgənin maraqlı insanları və ya xalq sənətkarlığı ilə tanışlıq və.s. Turizm müəssisəsinin mütəxəssisi öz tədqiqatında proqnozun yaradılması üçün əsas olan reallıqdan qabaqda ola bilər. Tədqiqat reallıqdan qabaqda olmaq iqtidarında olmasaydı, mütəxəssis onu ehtiyaclarına uyğun çevirə bilməzdi.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:**

Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar, məşğələ və laboratoriya dərslərində fəaliyyətinə görə və 30 bal kollokviumların nəticələrinə görə. İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir.

Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir. Qiymət meyarları aşağıdakılardır:

*-10 bal- tələbə keçilmiş material dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*
*-9 bal-tələbə keçilmiş material tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.*
*-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*
*-7 bal- tələbə keçilmiş material başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*
*-6 bal- tələbənin cavabı əsasən düzgündür.*
*-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*
*-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*
*- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*
*- 1-2 bal- tələbənin mövzudan* qismən xəbəri var.
-0 bal- *suala cavab yoxdur.*

Tələbənin imtahanda topladığı balın miqdarı **17 baldan** az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semestr dövründə tədris fəaliyyəti nəticəsində toplandığı bala əlavə olunmur.

Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında):

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** Tələbə universitetin daxili nizam-intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görülür.

**X.Təqdim planı:** Mühazirə 30 saat,məşğələ 15 saat, Cəmi 45 saat.

| № | Mövzuların adı | O cümlədən | |
|---|---|---|---|
| | | **Mühazirə** | **Seminar** |
| 1. | **Mövzu 1. Turizm tədqiqatlarında ümumi elmi metodların tətbiqi**<br>***Plan:***<br>1.Turizm fəaliyyətində ümumi elmi tədqiqat metodlarının dəyəri<br>2.Turizm fəaliyyətində analiz və sintez üsulları<br>3.Turizmdə təcrübə praktiki tədqiqat metodu kimi<br>4.Turizm biznesinin potensial imkanlarının təhlili üsulları<br>5.Turizm fəaliyyəti ilə bağlı tədqiqatlarda tarixi, məntiqi və ekspert qiymətləndirmə üsulları<br>6. Turizm tədqiqatlarında şəxsi metodların tətbiqi<br>7.Turizmdə modelləşdirmə real proseslərin öyrənilmə metodu kimi<br>***Mənbə: 1, 3,4 ,10*** | **4** | **2** |
| 2 | **Mövzu 2:** Turizmin kəmiyyət araşdırmalarında dialektikanın əsas qanunlarının tətbiqi<br>***Plan:***<br>1.Turizm sahəsində əks tərəflərin birliyi və mübarizəsi qanunu<br>**2.** Turizm tədqiqatlarında kəmiyyət dəyişikliklərinin keyfiyyət tədqiqatlarına təsiri<br>3.Turizm kəmiyyət tədqiqatlarında inkri inkar qanununun tətbiqi<br>***Mənbə: 2,3,4,10*** | **2** | **2** |
| 3. | **Mövzu 3.** Turizm şirkətlərinin malyyə-təsərrüfat fəaliyyətinin kəmiyyət dəyişikliklərinə təsiri<br>***Plan:***<br>1.Turizm müəssisələrinin maliyyə vəziyyətinin kəmiyyət qiymətləndirilməsi üsulları<br>2.Turizm müəssisələrinin maliyyə - təsərrüfat fəaliyyətinin balans və seçmə üsulları<br>3.Turizm müəssisələrinin maliyyə fəaliyyətinə daxili audit nəzarətinin kəmiyyət dəyişikliklərinə təsiri<br>4.Auditin kəmiyyət qiymətləndirməsi daxili nəzarətin tərkib hissəsi kimi<br>***Mənbə: 3,4,5,6,10*** | **2** | **2** |
| 4. | **Mövzu 4.** Turizm mütəxəssislərinin yaradıcılıq fəaliyyətinin elmi tədqiqində kəmiyyət üsullarının rolu<br>***Plan:***<br>1.Turizmdə yaradıcı fəaliyyətin inkişafı<br>2.Turizm müəssisələrində mütəxəssislərin yaradıcılıq fəaliyyətində sensor qavrayış və təmsilin rolu<br>3.Turizmdə kəmiyyət elmi tədqiqatların yaradıcı başlanğıcı | **2** | |

| | | | |
|---|---|---|---|
| | 4.Bazar şəraitində menecerin yaradıcı fəaliyyətinin xüsusiyyətləri<br>*Mənbə:4,5,6,10* | | |
| 5. | **Mövzu 5.** Turizmdə kəmiyyət tədqiqatlarının elmi proqnozlaşdırma üsulları<br>***Plan:***<br>1.Turizm biznesinin inkişaf perspektivləri<br>2.Turizm biznesində proqnozların təsnifatı<br>3.Biznes proqnozlarının kəmiyyət tərəfləri<br>4. Turizmdə strateji alternativlərin müəyyən edilməsi<br>*Mənbə:3,4,5,6,10* | **2** | **2** |
| 6. | **Mövzu 6.** Turizmdə kəmiyyət əsaslı biznes üsullarının tətbiqi<br>***Plan:***<br>1.Turizm müəssisələrinin iqtisadi imkanlarının kəmiyyət tərəflərinin müəyyən edilməsi<br>2.Turizm müəssisələrinin turizm bazarında fəaliyyətinin təhlili<br>3.Rəqabət üstünlüyünün müəyyən edilməsində kəmiyyət tədqiqat üsullarının tətbiqi<br>4.Turizmdə kəmiyyət əsaslı məsələlərin həllində riyazi proqramlaşdırma üsullarının tətbiqi<br>5. Turizmdə oyunlar nəzəriyyəsi<br>6.Turizm müəssisələrinin rəhbərliyi tərəfindən qəbul edilən idarəetmə qərarları<br>7. Turizm biznesinin inkişafına yönəlmiş kəmiyyət tədqiqat metodları<br>8.Turizm müəssisələrinin kommersiya fəaliyyətinin layihələndirilməsində fuksional modellərin tətbiqi<br>*Mənbə:3,4,5,6,10* | **4** | **2** |
| **7.** | **Mövzu 7.** Kəmiyyət əsaslı elmi məlumatların toplanması<br>***Plan:***<br>1.Kəmiyyət əsaslı elmi məlumatların əsas mənbələri. Turizm sahəsində dövri nəşrlər<br>2."Dövlət standartı" anlayışı<br>3.Turizm sahəsində internet resursları<br>**Mənbə:4,5,6,10** | **2** | |
| **8.** | **Mövzu 8.** Kəmiyyət əsaslı tədqiqatlarda sorğu metodunun statistik uçotu və təhlili<br>***Plan:***<br>1.Kəmiyyət tədqiqatlarda sorğu prosesinin mahiyyəti və konseptual əsasları<br>2.Sorğu prossedurları və mərhələləri<br>3.Sorğu alətlərinin hazırlanması<br>4.Sorğu anketinin tərtibatı<br>5.Planlaşdırma və seçim düzümü<br>6.Personalın treninqi və ilkin testləndirmə. Sorğunun keçirilməsi və monitorinqi<br>7.Sorğu məlumatlarının təhlili və hesabatın hazırlanması. Kodlaşdırma və emal<br>*Mənbə:3,4,5,* | **4** | **2** |
| 9. | **Mövzu 9.** Orta kəmiyyətlər və turizm statistikasında onların rolu<br>***Plan:***<br>1 Orta kəmiyyətin mahiyyəti və turizm statistikasında onun əhəmiyyəti<br>2 Orta kəmiyyətlərin növləri və onların hesablanma üsulları<br>3 Harmonik orta kəmiyyət<br>**Mənbə:,4,5** | **2** | |
| | **Mövzu 10.** Əhaliyə turizm xidmətin yaxşılaşdırılmasında kəmiyyət əsaslı elmi tədqiqatların rolu. | **6** | **3** |

| | | | |
|---|---|---|---|
| 10. | ***Plan:***<br>1.Metodologiya turizmdə tədqiqat metodlarının doktrinası kimi<br>2.Turizmdə elmi tədqiqat metodları<br>3.Turizm elminin funksional xüsusiyyətləri<br>4.Turizmdə tədqiqat metodlarına olan tələblər<br>5. Kvalimetriyanın turizm tədqiqatlarında əhəmiyyəti<br>6.Turizm tədqiqatlarda digər elmlərin əhəmiyyəti<br>7. Turizm metodologiyasının əsas prinsipləri<br>8. Turizmdə rəqabətli tender metodologiyası<br>9.Turizmdə kəmiyyət əsaslı elmi tədqiqatların xüsusiyyətləri<br>**Mənbə:3,4,6,10** | | |
| | **Cəmi:** | **30** | **15** |

**XI.Fənn üzrə tələblər:** Tələbə fənnin öyrənilməsi zamanı:- turizmin kəmiyyət araşdırmalarında dialektikanın əsas qanunlarının tətbiqini, turizmdə kəmiyyət əsaslı biznes üsullarının tətbiqini, turizm şirkətlərinin malyyə-təsərrüfat fəaliyyətinin kəmiyyət dəyişikliklərinə təsirini və.s tədqiqatçı kimi qiymətləndirmək bacarıqlarını əldə edəcəkdir.

**XII. Fənn üzrə təlimin nəticələri:**

- Turizm biznesinin potensial imkanlarının təhlili üsullarını mənimsəmək;
- Kəmiyyət əsaslı tədqiqatlarda sorğu metodunun statistik uçotu və təhlilini aparmaq;
- Turizm müəssisələrinin maliyyə fəaliyyətinə daxili audit nəzarətinin kəmiyyət dəyişikliklərinə təsiri öyrənmək;
- Turizmin kəmiyyət araşdırmalarında dialektikanın əsas qanunlarının tətbiqini bacarmaq

**XIII.Tələbələrin fənn haqqında rəy və iradları:**---------------------------------------------------------------------------------------------------------------------------

**XIV: Kollekvium sualları:**

**I Kollekvium sualları:**

1.Turizm fəaliyyətində ümumi elmi tədqiqat metodlarının dəyəri
2.Turizm fəaliyyətində analiz və sintez üsulları
3.Turizmdə təcrübə praktiki tədqiqat metodu kimi
4.Turizm biznesinin potensial imkanlarının təhlili üsulları
5.Turizm fəaliyyəti ilə bağlı tədqiqatlarda tarixi, məntiqi və ekspert qiymətləndirmə üsulları
6.Turizm tədqiqatlarında kəmiyyət dəyişikliklərinin keyfiyyət tədqiqatlarına təsiri
7.Turizm müəssisələrinin maliyyə vəziyyətinin kəmiyyət qiymətləndirilməsi üsulları
8.Turizm müəssisələrinin maliyyə - təsərrüfat fəaliyyətinin balans və seçmə üsulları
9.Turizm müəssisələrinin maliyyə fəaliyyətinə daxili audit nəzarətinin kəmiyyət dəyişikliklərinə təsiri
10.Auditin kəmiyyət qiymətləndirməsi daxili nəzarətin tərkib hissəsi kimi

**II Kollekvium sualları:**

1.Turizm müəssisələrinin iqtisadi imkanlarının kəmiyyət tərəflərinin müəyyən edilməsi
2.Turizm müəssisələrinin turizm bazarında fəaliyyətinin təhlili
3.Rəqabət üstünlüyünün müəyyən edilməsində kəmiyyət tədqiqat üsullarının tətbiqi
4.Turizm müəssisələrinin rəhbərliyi tərəfindən qəbul edilən idarəetmə qərarları
5.Bazar şəraitində menecerin yaradıcı fəaliyyətinin xüsusiyyətləri
6.Kəmiyyət tədqiqatlarda sorğu prosesinin mahiyyəti və konseptual əsasları
7.Sorğu prossedurları və mərhələləri
8.Planlaşdırma və seçim düzümü
9.Personalın treninqi və ilkin testləndirmə. Sorğunun keçirilməsi və monitorinqi
10.Sorğu məlumatlarının təhlili və hesabatın hazırlanması. Kodlaşdırma və emal

**XV. İmtahan sualları:**

1. Turizm fəaliyyətində ümumi elmi tədqiqat metodlarının dəyəri
2. Turizm fəaliyyətində analiz və sintez üsulları
3. Turizmdə təcrübə praktiki tədqiqat metodu kimi
4. Turizm biznesinin potensial imkanlarının təhlili üsulları

5. Turizm fəaliyyəti ilə bağlı tədqiqatlarda tarixi, məntiqi və ekspert qiymətləndirmə üsulları
6. Turizm tədqiqatlarında şəxsi metodların tətbiqi
7. Turizmdə modelləşdirmə real proseslərin öyrənilmə metodu kimi
8. Turizm tədqiqatlarında kəmiyyət dəyişikliklərinin keyfiyyət tədqiqatlarına təsiri
9. Turizm kəmiyyət tədqiqatlarında inkri inkar qanununun tətbiqi
10. Turizm müəssisələrinin maliyyə vəziyyətinin kəmiyyət qiymətləndirilməsi üsulları
11. Turizm müəssisələrinin maliyyə - təsərrüfat fəaliyyətinin balans və seçmə üsulları
12. Turizm müəssisələrinin maliyyə fəaliyyətinə daxili audit nəzarətinin kəmiyyət dəyişikliklərinə təsiri
13. Auditin kəmiyyət qiymətləndirməsi daxili nəzarətin tərkib hissəsi kimi
14. Turizmdə yaradıcı fəaliyyətin inkişafı
15. Turizmdə kəmiyyət elmi tədqiqatların yaradıcı başlanğıcı
16. Bazar şəraitində menecerin yaradıcı fəaliyyətinin xüsusiyyətləri
17. Turizm biznesinin inkişaf perspektivləri
18. Turizm biznesində proqnozların təsnifatı
19. Turizmdə strateji alternativlərin müəyyən edilməsi
20. Turizm müəssisələrinin iqtisadi imkanlarının kəmiyyət tərəflərinin müəyyən edilməsi
21. Turizm müəssisələrinin turizm bazarında fəaliyyətinin təhlili
22. Rəqabət üstünlüyünün müəyyən edilməsində kəmiyyət tədqiqat üsullarının tətbiqi
23. Turizmdə oyunlar nəzəriyyəsi
24. Turizm müəssisələrinin rəhbərliyi tərəfindən qəbul edilən idarəetmə qərarları
25. Turizm biznesinin inkişafına yönəlmiş kəmiyyət tədqiqat metodları
26. Kəmiyyət əsaslı elmi məlumatların əsas mənbələri. Turizm sahəsində dövri nəşrlər
27. "Dövlət standartı" anlayışı
28. Turizm sahəsində internet resursları
29. Kəmiyyət tədqiqatlarda sorğu prosesinin mahiyyəti və konseptual əsasları
30. Sorğu prossedurları və mərhələləri
31. Sorğu alətlərinin hazırlanması
32. Sorğu anketinin tərtibatı
33. Planlaşdırma və seçim düzümü
34. Personalın treninqi və ilkin testləndirmə. Sorğunun keçirilməsi və monitorinqi
35. Sorğu məlumatlarının təhlili və hesabatın hazırlanması. Kodlaşdırma və emal
36. Orta kəmiyyətin mahiyyəti və turizm statistikasında onun əhəmiyyəti
37. Orta kəmiyyətlərin növləri və onların hesablanma üsulları
38. Turizmdə elmi tədqiqat metodları
39. Turizm elminin funksional xüsusiyyətləri
40. Turizmdə tədqiqat metodlarına olan tələblər
41. Kvalimetriyanın turizm tədqiqatlarında əhəmiyyəti
42. Turizm tədqiqatlarda digər elmlərin əhəmiyyəti
43. Turizm metodologiyasının əsas prinsipləri
44. Turizmdə rəqabətli tender metodologiyası
45. Turizmdə kəmiyyət əsaslı elmi tədqiqatların xüsusiyyətləri

"Kəmiyyət əsaslı tədqiqat metodları" fənninin sillabusu 050810- "Turizm işinin təşkili" ixtisası üzrə işçi tədris planı əsasında tərtib edilmişdir.

Sillabus *"İqtisadiyyat və innovativ idarəetmə"* kafedrasında müzakirə edilərək təsdiq edilmişdir ("12. 02. 2024-cü il, protokol №-06").

**Kafedra müdiri:** **dos.A.T.Əfəndiyeva**

**Fənn müəllimi:** **dos. F.M.Zamanov**